# AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARININ HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ ÜZRƏ KOMİSSİYA

**31 dekabr 2006-cı il tarixdə**
**başa çatan il üzrə**
**Müstəqil Mühasiblərin Hesabatı**

## MÜNDƏRICAT

| | Səhifə |
|---|---|
| Müstəqil Mühasiblərin Hesabatı | |
| Qeydlər | 4-9 |
| Dövlət və Hasilat Şirkətlərinin Hesabatlarının Xülasəsi | 10 |
| Rəy | 11 |
| *Əlavələr* | |
| Əlavə 1<br>Azərbaycan Respublikasının Mineral Ehtiyatlarının Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü üzrə Komissiyanın Bəyannaməsi | 12 |
| Əlavə 2<br>Anlaşma Memorandumunun üzvü olan və olmayan Mineral Ehtiyatların Hasilatı ilə Məşgul olan Sənaye Şirkətlərinin Siyahısı | 13 |
| Əlavə 3<br>Anlaşma Memorandumunun üzvü olan Qeyri-Hökümət Təşkilatlarının və Fiziki Şəxslərin Siyahısı | 14-16 |

MOORE STEPHENS
AZERBAIJAN

Hyatt Tower III
1033 Izmir Street
Baku AZ1065
Azerbaijan

Tel: +994 12 4907748
+994 12 4907749
+994 12 4907747
Fax: +994 12 4907750
office@moorestephens.az
www.moorestephens.com

**MÜSTƏQIL MÜHASIBLƏRIN HESABATI**

Azərbaycan Respublikasının Mineral Ehtiyatlarının Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) üzrə Komissiyaya:

Biz, MHŞT üzrə Komissiyanın (“Komissiya”) bəyannaməsinin (bax: Əlavə 1) yoxlamasını həyata keçirərək müəyyən etdik ki, 31 dekabr 2006-cı il tarixdə başa çatan il ərzində Azərbaycan Respublikası Hökümətinin (“Hökümət”) mineral ehtiyatların hasilatı ilə məşğul olan şirkətlərdən (“Şirkətlər”) aldığı ödənişlərin/ayırmaların cədvəli MHŞT üzrə Komissiya, Azərbaycan Respublikasında mineral ehtiyatların hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər (bax Əlavə 2) və qeyri-hökümət təşkilatları və fiziki şəxslərin daxil olduğu Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası (bax: Əlavə 3) arasında 24 noyabr 2004-cü il tarixdə imzalanmış Qarşılıqlı Anlaşma Memorandumuna (“AM”) uyğun olaraq hazırlanmışdır. Azərbaycan Respublikasının MHŞT üzrə Komissiyası bəyannaməyə görə cavabdehdir. Bizim cavabdehliyimiz yoxlama əsasında Bəyannamə üzrə rəy ifadə etməkdir.

Aşağıdakı paraqrafda qeyd olunanlar istisna olmaqla, biz yoxlamanı Əminlik Yoxlamaları üzrə Beynəlxalq Standarta uyğun olaraq aparmışıq və müvafiq olaraq Komissiyanin Bəyannaməsini təsdiq edən sübutların test üsulu ilə yoxlamasını və bizim şərtlərdə vacib hesab etdiyimiz bu kimi başqa prosedurları həyata keçirmişik. İnanırıq ki, yoxlamamız rəyimizin əsaslı olmasını təmin edir.

Komissiya Bəyannaməsini yoxlamaq üçün əldə olunan məlumat AM-nun üzvü olan Şirkətlərin yazılı təqdimatından və Hökümətin aldığı ödənişlər/ayırmalara dair Komissiya tərəfindən təqdim edilən təfsilatlı hesabatlardan ibarət olmuşdur. Bizim yoxlamamız Hökümətin aldığı bütün ödənişləri/ayırmaları və Şirkətlərin etdiyi bütün ödənişləri/ayırmaları əhatə etməyib. Əgər Şirkətlər ödənişlər/ayırmalar həyata keçiribsə, lakin bu öz əksini nə Hökumətin, nə də Şirkətin təqdimatında tapmayıbsa, bizim yoxlamamız onları meydana çıxarmaq üçün yetərli deyildir.

**İcra olunmuş işin xülasəsi**

Azərbaycan Respublikasının MHŞT üzrə Komissiyanın Hesabatını (Əlavə 1) yoxlamaq üçün biz 31 dekabr 2006-cı il tarixdə başa çatan il ərzində Hökümətin aldığı ödənişlərin/ayırmaların cədvəlinin (bax “Hökümətin cədvəli”) (AM üzvü olan) Şirkətlər tərəfindən hazırlanmış və Əlavə 2-də verilmiş cədvəllərlə (“Şirkətlər cədvəli”) müqayisəsini aparmışıq. Yuxarıdakı cədvəllər arasındakı fərqlərin səbəblərini müəyyənləşdirmək üçün biz şəraitin tələb etdiyi zəruri prosedurları həyata keçirmişik. Əldə olunmuş nəticələr aşağıda öz əksini tapmışdır.

## QEYDLƏR

### Xarici Şirkətlərin hasilatında Hökümətin payı

**Qeyd 1** ***Xarici Şirkətlərin istehsal həcmində pul şəklində Hökümətin payı***

Bu, Hökümətin neft hasilatınında, xarici Şirkətlərin Hökümətə pul vəsaiti kimi köçürdükləri payını əks etdirir. Neft Şirkətləri Hökümətin payını Hasilatın Pay Bölgüsü Sazişlərinə ("HPBS") uyğun olaraq, məhsul və ya pul vəsaiti şəklində köçürürlər.

| | **milyon ABŞ dollar** |
|---|---|
| Hökümətin cədvəli | 20.2 |
| Şirkətlərin cədvəli | 23.8 |
| Fərq | (3.6) |

3.6 milyon ABŞ dolları, məlumat verilməsi mütləq olmayan bənd sayılmasına baxmayaraq, Şirkətlərin cədvəlinə daxil edilmişdir. Bu məbləğ, ARDNŞ-nə xarici hasilat şirkəti tərəfindən ARDNŞ-nin payı kimi ödənilmişdir və kommersiya fəaliyyətinə aid olduğu səbəbdən, ARDNŞ-nin dövlət strukturu kimi fəaliyyəti ilə heç bir əlaqəsi yoxdur. Biz, bu fərqi həmin xarici hasilat şirkətindən əlavə təsdiqedici sənədlər aldıqdan sonra təsdiq etdik.

**Qeyd 2** ***Xam neft***

Bu, Hökümətə məhsul şəklində köçürülən və xarici Şirkətlərin neft hasilatında Hökümətə məxsus , payı əks etdirir.

| | **milyon barrel** |
|---|---|
| Hökümətin cədvəli | 19.0 |
| Şirkətlərin cədvəli | 21.4 |
| Fərq | (2.4) |

Fərq aşağıdakılarla izah olunur:

- 4.4 milyon barrel bir xarici hasilat şirkəti tərəfindən hesabata səhvən daxil edilmişdir. Bu məbləğ ARDNŞ-nin kommersiya fəaliyyətinə aiddir və bu səbəbdən hesabata daxil edilməməlidir. Biz, bu fərqi həm ARDNŞ, həm də sözügedən xarici hasilat şirkətindən aldığımız əlavə sənədlər əsasında təsdiq etdik. Müvafiq olaraq bu məbləğ Şirkətlərin hesabatındakı məbləğdən çıxılmalıdır.

- Aşağıdakı, Qeyd 7-də göstərilmiş 1.9 milyon barrel, xarici hasilat şirkəti tərəfindən səhvən Hökümətin bu şirkətin istehsal həcmində payı əvəzinə royalti kimi göstərilmişdir və beləliklə, xarici Şirkətlərin cədvəlinə əlavə edilməlidir. Biz, bu fərqi ARDNŞ və sözügeden xarici şirkətdən əlavə təsdiqedici sənədlər aldıqdan sonra təsdiq etdik.

- 0.1 milyon barrel xarici hasilat şirkətlərinin cədvəlinə daxil edilməlidir. Fərq, bir xarici hasilat şirkətinin Bakı-Tbilisi-Ceyhan Boru Kəməri şirkətində ("BTC şirkəti") boru kəmərinin doldurulması zamanı Hökümətin əvəzinə köçürdüyü payı göstərməməsi səbəbindən meydana çıxmışdır. Xam neft boru kəmərinə, xarici hasilat sirkətləri tərəfindən onların hasilatdakı paylarından asılı olaraq, Hökümətin payı əvəzinə doldurulur. Bu məlumat Hökümətin payını ifadə edir və bu səbəbdən hesabata daxil edilməlidir. Fərq MHŞT üzrə hesabatlara dair əvvəlki yoxlama zamanı müəyyənləşdirilmiş və təsdiqlənmişdir və 14 dekabr 2006-cı il tarixdə əvvəlki müstəqil mühasiblərin hesabatında göstərilmişdir. Biz, bu fərqi "Azəri-Çıraq-Günəşli" ("AÇG") tərəfdaşlarının boru kəmərini doldurmasına dair MHŞT-nın hesabatına əlavə edilmiş məlumatla təsdiq etdik.

**Qeyd 3 *Qaz***

Bu həm təbii, həm də səmt qazını əks etdirir. Səmt qazı Hökümətlə olan razılaşmaya əsasən, təmənnasız köçürülür. Təbii qaz isə xarici şirkətlərin istehsal həcmində Hökümətin payıdır və Hökümətə məhsul şəkilndə köçürülür.

| | **min kub metr** |
|---|---|
| Hökümətin cədvəli | 2,395,461.0 |
| Şirkətlərin cədvəli | 2,208,691.9 |
| Fərq | 186,769.1 |

- Hökümət, bir xarici hasılat şirkətindən aldığı qazın həcmini 2,369,186.0 min kub metr kimi göstərmişdir, xarici şirkət tərəfindən hesabata daxil edilən müvafiq göstərici isə 2,191,730.9 min kub metr olmuşdur. Bu 177.455.1 min kub metr fərqlə nəticələnmişdir və həmin fərq Şirkətlərin cədvəlinə əlavə edilməlidir. Fərqin əksər hissəsi tərəflərin müxtəlif ölçü vahidləri istifadə etməsi səbəbindən yaranmışdır: xarici hasilat şirkəti həcmi Normal Kub Metr-lə ($Nm^3$), 0°C-də; Hökümət isə Standart Kub Metr-lə ($Sm^3$), 20°C-də ölçmüşdür. Bizim xahişimizə əsasən, hasilat şirkəti təsdiq etmişdir ki, bu rəqəmi $Sm^3$-lə ölçsəydi, Hökümətə köçürülmüş qazın həcmini 2.343.096.9 min kub metr göstərmiş olardı. Buna uyğun olaraq tərəflərin göstərdikləri rəqəmlərdəki fərq cəmi 26.089.1 min kub metr təşkil etmiş olardı ki, bu da aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| | |
|---|---|
| Hökümət tərəfindən göstərilən min Standard Kub Metr ($Sm^3$) | 2,369,186.0 |
| Xarici hasilat şirkəti tərəfindən göstərilən min Standard Kub Metr ($Sm^3$) | 2,343,096.9 |
| Fərq | 26,089.1 |

  Xarici hasilat şirkəti bu fərqin Hökümət sayğacı və xarici şirkətin sayğacı arasında olan məsafə fərqi, kiçik qeyri-dəqiqlik və yuvarlaqlaşma səbəbindən yarandığını təsdiq etmişdir.

- Xarici hasilat şirkəti 6,933.0 min kub metr qazı Hökümətə köçürülmüş kimi göstərmişdir, halbuki düzgün məbləğ 16,247.0 min kub metr olmuşdur. Bu, 9,314.0 min kub metr fərq ilə nəticələnmişdir ki, bu da Şirkətlərin cədvəlinə əlavə edilməlidir. Biz bu fərqi ARDNŞ və sözügeden xarici şirkətdən əlavə təsdiqedici sənədlər almaqla təsdiq etdik.

**Hökümətə mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici Şirkətlərdən digər daxilolmalar**

**Qeyd 4** ***Bonuslar***

Bonuslar neft Şirkətləri tərəfindən hasilat hüquqlarının təhvil verilməsi və transfer edilməsinə görə ödədiyi haqqları əks etdirir. Bu haqqlar Hökümətlə olan müvafiq razılaşmaya əsasən neft yataqlarının işlənməsinin müəyyən mərhələlərində ödənilir.

| | **milyon ABŞ dolları** |
|---|---|
| Hökümətin cədvəli | 2.0 |
| Şirkətlərin cədvəli | 48.7 |
| Fərq | (46.7) |

Bu fərq aşağıdakılardan ibarətdir:

- Dörd xarici hasilat şirkəti başqa bir xarici şirkətə köçürdükləri 16.7 milyon ABŞ dolları məbləğində pul vəsaitini Hökümətə köçürüləcək bonus kimi göstərmişlər. Biz müəyyən etdik ki, bu ödəmələr Azəri-Çıraq-Günəşli yatağı üzrə Hasilatının Pay Bölgüsü Sazişinin (“AÇG HPBS”) 29.2 (ııı) Bəndinə uyğun olaraq ARDNŞ-ə ödənilən bonusların bir hissəsini təşkil edir. Vəsait, həmin 29.2 (ııı)) Bəndə uyğun olaraq, dörd xarici hasilat şirkəti tərəfindən digər xarici şirkətə 1993/1994-cü illərdə ARDNŞ üçün həyata keçirilən qaz-kompressor stansiyasının inşasına görə ödənmişdir. Bununla əlaqədar olaraq, bu ödəmələr həmin dörd xarici hasilat şirkəti tərəfindən bonus kimi göstərilsə də, Hökümət tərəfindən belə bir məbləğ hesabata daxil edilməmişsdir. Biz, bu fərqi ARDNŞ və əlaqədar dörd xarici hasilat şirkətlərindən əlavə izah və təsdiqedici sənədlər almaqla təsdiq etdik.

- ARDNŞ və iki xarici hasilat şirkəti arasında imzalanmış 19 aprel 1995-ci il tarixli Razılaşmanın 3.01 (a) Bəndinə əsasən bu iki şirkət ARDNŞ-ə 30.0 milyon ABŞ dolları (hər bir şirkətdən 15.0 milyon ABŞ dolları) ödəmişlər. Onlar, bu məbləği HPBS-ə uyğun olaraq bonus ödənişi kimi göstərmişlər. Bu ödəniş ARDNŞ-dən HPBS-də iştirak payının alınması ilə bağlı olmuş və bu səbəbdən, Hökümət tərəfindən bonus ödənişi kimi göstərilməmişdir. Biz bu fərqi alqı-satqı müqavilələrindən çıxarışları və ödəmə tapşırıqlarını yoxlamaqla və ARDNŞ-dən əlavə izahlar almaqla təsdiq etdik.

**Qeyd 5 *Hökümətə ödənilən nəqletmə tarifləri***

Bu, Azərbaycan Respublikasının ərazisində neftin nəqli üçün neft şirkətlərinin Hökümətə ödədikləri haqqları əks etdirir.

| | milyon ABŞ dolları |
|---|---|
| Hökümətin cədvəli | 14.2 |
| Şirkətlərin cədvəli | 12.3 |
| Fərq | 1.9 |

Hökümət cədvəlinə daxil edilən 1.9 milyon ABŞ dolları həcmində vəsait Hökümətin payına düşən neftin ötürülməsi üçün Hökümətin özü tərəfindən özünə ödənilmiş nəqletmə haqqlarını əks etdirir. Əməliyyatın xüsusiyyətinə görə bu fərq daimidir. Biz Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (“ABƏŞ”) və ARDNF-dən əsaslandırılmış izah aldıqdan sonra Hökümətə ayrılmış ümumi vəsaitin məbləğini təsdiq etdik.

**Qeyd 6 *Akrhesabı ödənişlər***

Bu, tədqiqat mərhələsində torpaq/dəniz sahələrinin istifadəsi üçün mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətlərin ödədikləri rüsumları əks etdirir.

| | milyon ABŞ dolları |
|---|---|
| Hökümətin cədvəli | 8.6 |
| Şirkətlərin cədvəli | 8.8 |
| Fərq | (0.2) |

Fərq aşağıdakı kimi izah olunur:

- 0.3 milyon ABŞ dolları Şirkətlərin cədvəlinə daxil edilməlidir. Fərq, mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətin daha yüksək olan faktiki ödənilmiş rüsumlar əvəzinə hesablanmış rüsumlar üzrə məlumat verməsi nəticəsində yaranmışdır. Bu fərq həm ARDNF, həm ,də sözügedən şirkət tərəfindən təsdiqlənmişdir.

- 0.5 milyon ABŞ dolları bir mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətin akrhesabı ödəniş payıdır və neft yataqlarının işlənməsində əməliyyat şirkəti kimi fəaliyyət göstərən başqa bir şirkətə ödənilmişdir. Yekun akrhesabı ödəniş 2007-ci ildə edilmiş və bu səbəbdən də 2006-cı ildə Hökümət bu barədə hesabat verməmişdir. Beləliklə, hesabat kassa metodu əsasında hazırlandığından bu məbləğ Şirkətlərin cədvəlindən çıxarılmalıdır. Bu fərq hər iki mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətlər tərəfindən təsdiqlənmişdir.

**Mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətlər tərəfindən Hökümətə ödənilmiş vergilər**

**Qeyd 7 *Royalti***

Royalti (mədən vergisi) Azərbaycan Respublikasının ərazisində (Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektoru daxil olmaqla) yeraltı qatlardan faydalı qazıntıların (mineral ehtiyatların) hasil olunmasına görə ödənilir.

| | milyon ABŞ dolları |
|---|---|
| Hökümətin cədvəli | 0.0 |
| Şirkətlərin cədvəli | 1.9 |
| Fərq | (1.9) |

Yuxarıda, Qeyd 2-də qeyd olunduğu kimi, xarici şirkətin hasilat həcmində Hökümətin payı kimi göstərilən 1.9 milyon barrel, sözügedən mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkət tərəfindən nağd ödənilmiş royalti kimi səhvən göstərilmiş və beləliklə də, Şirkətlərin cədvəlində müvafiq olaraq yenidən təsniflənməlidir. Biz, bu fərqi, ARDNŞ və həmin xarici şirkətdən əlavə izah və təsdiqedici sənədlər aldıqdan sonra təsdiq etdik.

**Qeyd 8** ***Mənfəət vergisi***

Mənfəət vergisi Azərbaycan Respublikası Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisinin gəlirləri (vergidən azad edilən gəlirlərdən başqa) və gəlirdən çıxılan xərcləri arasında olan fərqdən tutulan vergidir.

| | **milyon ABŞ dolları**[1] |
|---|---|
| Hökümətin cədvəli | 1,100.1 |
| Şirkətlərin cədvəli | 1,123.0 |
| Fərq | (22.9) |

22.9 milyon ABŞ dolları məbləğində fərq bir xarici hasilat şirkətinin hesablanmış lakin ödənilməmiş verginin məbləğini öz hesabatına daxil etməsi səbəbindən yaranmışdır. Biz bu fərqi sözügeden xarici şirkətin ödəniş sənədlərini yoxladıqdan sonra təsdiq etdik.

**Qeyd 9** ***Digər vergilər***

Digər vergilər özündə əmlak, torpaq, yol vergisini və ƏDV-ni birləşdirir. Gəlir mənbəyində tutulan vergi, fiziki şəxslərin gəlir vergisi və sosial sığorta ödənişləri bura daxil deyildir.

| | **milyon ABŞ dolları** |
|---|---|
| Hökümətin cədvəli | 0.0 |
| Şirkətlərin cədvəli | 2.1 |
| Fərq | (2.1) |

Bu fərq bir mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətin göstərdiyi mənbədə tutulan vergini və işçilərin gəlir vergisini əks etdirir. Anlaşma Memorandumunun Əlavəsi olan “Mineral ehtiyatların hasilatı sənayesində çalışan xarici şirkətlərin Azərbaycan Respublikası Hökümətinə ödənişlərinin hesabatının hazırlaması üzrə təlimat”ın (bundan sonra “Təlimat”) 11 və 12-ci bəndlərinə uyğun olaraq bu vergi və rüsumlar MHŞT-nin hesabatına daxil edilmir. Biz bu fərqi həmin xarici şirkətdən əlavə əsaslandırılmış izahat almaqla təsdiq etdik.

**Yerli şirkətlər tərəfindən Hökümətə ödənilmiş vergilər**

**Qeyd 10** ***Royalti***

Royalti (mədən vergisi) Azərbaycan Respublikasının ərazisində (Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektoru daxil olmaqla) yeraltı qatlardan faydalı qazıntıların (mineral ehtiyatların) hasil olunmasına görə ödənilir.

| | **milyon AZN**[2] |
|---|---|
| Hökümətin cədvəli | 169.3 |
| Şirkətlərin cədvəli | 169.6 |
| Fərq | (0.3) |

0.3 milyon AZN məbləğində fərq yerli hasilat şirkətinin ödəmədiyi məbləği hesabata daxil etməsi səbəbindən yaranmışdır. Biz bu fərqi sözügedən yerli şirkətin bank çıxarışlarını yoxladıqdan sonra təsdiq etdik.

[1] Hökümətin hesabatında əks olunan məbləğ Azərbaycan yeni manatı (“AZN”) ilə ifadə olunmuşdur. Ödənişlər ABŞ dolları ilə aparılmışdır və ödəniş aparıldığı tarixdə qüvvədə olan Azərbaycan Respublikası Milli Bankının (“ARMB”) rəsmi məzənnəsi ilə konvertasiya olunmuşdur.

[2] 1 yanvar 2006-cı il tarixində yeni manat (“AZN”) qüvvəyə minmiş və mövcud valyutanı (“AZM”) əvəz etmişdir. 1 yeni manat 5,000 köhnə manata bərabərdir.

**Qeyd 11** ***Mənfəət vergisi***

Mənfəət vergisi vergi ödəyicisinin gəlirləri (vergidən azad edilən gəlirlərdən başqa) və Azərbaycan Respublikası Vergi Məcəlləsinə əsasən gəlirdən çıxılan xərcləri arasında olan fərqdən tutulan vergidir.

| | **milyon AZN** |
|---|---|
| Hökümətin cədvəli | 29.4 |
| Şirkətlərin cədvəli | 31.7 |
| Fərq | (2.3) |

2.3 milyon AZN məbləğində fərq bir yerli hasilat şirkətinin ödənilmiş mənfəət vergisi əvəzinə 2006-cı ildə hesablanmış mənfəət vergisini göstərməsi səbəbindən yaranmışdır. Biz, bu fərqi sözügeden yerli şirkətin ödəniş sənədlərini yoxladıqdan sonra təsdiq etdik.

**Qeyd 12** ***Digər vergilər***

Digər vergilər özündə əmlak, torpaq, yol vergisini və ƏDV-ni birləşdirir. Gəlir mənbəyində tutulan vergi, fiziki şəxslərin gəlir vergisi və sosial sığorta ödənişləri bura daxil deyildir.

| | **milyon AZN** |
|---|---|
| Hökümətin cədvəli | 246.1 |
| Şirkətlərin cədvəli | 245.1 |
| Fərq | 1.0 |

1.0 milyon AZN fərqinin yaranmasının səbəbi aşağıdakılardır:

- 0.4 milyon AZN məbləğində ödənilmiş Əlavə Dəyər Vergisi iki yerli hasilat şirkəti tərəfindən Şirkətlərin Cədvəlinə səhvən daxil edilməmişdir. Bu fərq Şirkətlərin Cədvəlinə əlavə edilməlidir. Biz, bu fərqi sözügedən yerli hasilat şirkətlərinin ödəniş sənədlərini yoxladıqdan sonra təsdiq etdik.

- 0.1 milyon AZN fərq yerli hasilat şirkətinin faktiki ödənilmiş vergidən az olan hesablanmış vergi borcunu göstərməsi səbəbindən yaranmışdır. Hesabat kassa metodu əsasında hazırlanmalı olduğundan, Şirkətlər faktiki ödənilmiş məbləğlər haqqında məlumat verməlidir. Bununla əlaqədar olaraq, fərq Şirkətlərin cədvəlinə əlavə edilməlidir. Biz bu fərqi sözügeden yerli şirkətin mühasibat yazılışlarını və ödəniş sənədlərini yoxlayaraq təsdiq etdik.

- 0.5 milyon AZN bir yerli hasilat şirkətinin səhmdarlarına ayrılan dividendlər üzrə ödənilmiş 10% mənbədən tutulan gəlir vergisidir ki, Hökümət səhvən onu öz cədvəlinə əlavə etmişdir. Yuxarıda qeyd olunduğu kimi mənbədən tutulan və fiziki şəxslərin gəlir vergiləri və Dövlət Sosial Müdafiə Fonduna ayırmalar hesabata daxil edilməməlidir. Bununla əlaqədar olaraq, bu məbləğ Hökümətin cədvəlindən çıxarılmalıdır. Biz bu fərqi Vergilər Nazirliyinin qeydlərini nəzərdən keçirdikdən sonra təsdiq etdik.

## HÖKÜMƏT VƏ HASİLAT ŞİRKƏTLƏRİNİN HESABATLARININ XÜLASƏSİ

| Xarici Hasilat Şirkətləri | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Hökümətin Hesabatı | | | | Xarici Hasilat Şirkətlərinin Hesabatı | | | | Fərq | | | | Qeydlər |
| | Dəyər | | Həcm | | Dəyər | | Həcm | | Dəyər | | Həcm | | |
| | milyon ABŞ dolları | milyon AZN | neft (nemb) | qaz (min m³) | milyon ABŞ dolları | milyon AZN | neft (nemb) | qaz (min m³) | milyon ABŞ dolları | milyon AZN | neft (nemb) | qaz (min m³) | |
| Pul vəsaitləri | 20.2 | - | - | - | 23.8 | - | - | - | (3.6) | - | - | - | 1 |
| Xam neft | - | - | 19.0 | - | - | - | 21.4 | - | - | - | (2.4) | - | 2 |
| Qaz | - | - | - | 2,395,461.0 | - | - | - | 2,208,691.9 | - | - | - | 186,769.1 | 3 |
| Bonuslar | 2.0 | - | - | - | 48.7 | - | - | - | (46.7) | - | - | - | 4 |
| Nəqletmə tarifləri | 14.2 | - | - | - | 12.3 | - | - | - | 1.9 | - | - | - | 5 |
| Akrhesabı ödənişlər | 8.6 | - | - | - | 8.8 | - | - | - | (0.2) | - | - | - | 6 |
| Royalti | - | - | - | - | - | - | 1.9 | - | - | - | (1.9) | - | 7 |
| Mənfəət vergisi | 1,100.1 | - | - | - | 1,123.0 | - | - | - | (22.9) | - | - | - | 8 |
| Digər vergilər | - | - | - | - | 2.1 | - | - | - | (2.1) | - | - | - | 9 |
| | | | | | | | | | | | | | |

| Yerli Hasilat Şirkətləri | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Hökümətin Hesabatı | | | | Yerli Hasilat Şirkətlərinin Hesabatı | | | | Fərq | | | | Qeydlər |
| | Dəyər | | Həcm | | Dəyər | | Həcm | | Dəyər | | Həcm | | |
| | milyon ABŞ dolları | milyon AZN | neft (nebm) | qaz (min m³) | milyon ABŞ dolları | milyon AZN | neft (nebm) | qaz (min m³) | milyon ABŞ dolları | milyon AZN | neft (nebm) | qaz (min m³) | |
| Qaz | - | - | - | 7.9 | - | - | - | 7.9 | - | - | - | - | |
| Royalti | - | 169.3 | - | - | - | 169.6 | - | - | - | (0.3) | - | - | 10 |
| Mənfəət vergisi | - | 29.4 | - | - | - | 31.7 | - | - | - | (2.3) | - | - | 11 |
| Digər vergilər | - | 246.1 | - | - | - | 245.1 | - | - | - | 1.0 | - | - | 12 |
| Qiymət fərqləri[1] | 12.5 | - | - | - | 12.5 | - | - | - | - | - | - | - | |

***Bu cədvəldə istifadə olunan akronimlər və ixtisarlar***

| | | |
|---|---|---|
| ABŞ dolları | - | Amerika Birləşmiş Ştatları dolları |
| AZN | - | Azərbaycan yeni manatı |
| Nemb | - | neft ekvivalentinin milyon barrelli |
| m³ | - | kub metr |

[1] Neft satışında yaranan qiymət fərqindən daxilolmaları əks etdirir.

**RƏY**

Şirkətlər tərəfindən edilmiş bütün ödənişlərin/ayırmaların və Hökümət tərəfindən qəbul olunan bütün ödənişlərin/ayırmaların yoxlamasını apardığımız zaman edilməsi zəruri olan hər hansı mümkün düzəlişlər (əgər olmuşsa) istisna olmaqla, bu hesabatda öz əksini tapmış yoxlamamıza əsaslanaraq verdiyimiz rəy belədir: 31 dekabr 2006-cı il tarixidə bitən il ərzində qəbul olunmuş ödənişlərin/ayırmaların cədvəli ilə bağlı Azərbaycan Respublikasının Mineral Ehtiyatlarının Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) üzrə Komissiyanın Bəyannaməsi yuxarıda qeyd olunan tələblərə uyğun olaraq hazırlanmış və bütün əhəmiyyətli hallar düzgün əks olunmuşdur.

Bu hesabat AM-nu imzalayan tərəflərin istifadəsi üçün nəzərdə tutulmuşdur və digərləri tərəfindən və AM-da qeyd olunmayan məqsədlər üçün istifadə edilməməlidir.

Moore Stephens Azerbaijan

MOORE STEPHENS AZERBAIJAN LIMITED * BAKU * Branch Office

24 Avqust 2007-ci il

**Əlavə 1**
**Azərbaycan Respublikasının Mineral Ehtiyatlarının Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü (MHŞT) üzrə Komissiyanın Bəyannaməsi**

31 dekabr 2006-cı il tarixdə başa çatan il ərzində Azərbaycan Respublikası Hökümətinin ("Hökümət") mineral ehtiyatların hasilatı ilə məşğul olan şirkətlərdən ("Şirkətlər") aldığı ödənişlərin/ayırmaların cədvəli MHŞT üzrə hökumət Komissiyası, Azərbaycan Respublikasında mineral ehtiyatların hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər (bax: Əlavə 2) və qeyri hökümət təşkilatların (bax: Əlavə 3) arasında 24 noyabr 2004-cü il tarixdə imzalanmış Qarşılıqlı Anlaşma Memorandumuna ("AM") uyğun olaraq hazırlanmışdır.

MHTŞ Komissiyasının Sədri

**Əlavə 2**
**Anlaşma Memorandumunun tərəfi olan və tərəfi olmayan, mineral ehtiyatların hasilatı ilə məşğul olan şirkətlərin siyahısı**

**Anlaşma Memorandumunun tərəfi olan şirkətlər**

1. BP Eksploreyşn (Kaspian Sea) Limited,
2. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti,
3. Total E&P Azərbaycan B.V,
4. ITOÇU Oyl Eksploreysn (Azərbaycan) Inc.,
5. Statoyl,
6. Turkish Petroleum A.O.,
7. Komonvels Neft və Qaz,
8. Ekson Azərbaycan Limited,
9. KonokoFilips,
10. Amerada Hess (ACG) Limited,
11. Devon Enerji Kaspian Korporeyşn,
12. Lukoyl Oversiz,
13. Şenqli Oyl,
14. Salyan Oyl Limited,
15. Karasu Əməliyyat Şirkəti,
16. Şell Azərbaycan Eksploreyşn ənd Prodakşn,
17. Middle East Petroleum,
18. Anşad Petrol BM,
19. Şirvan Oyl BM,
20. Azgerneft BM,
21. İnpeks,
22. Şevron Oversiz Petroleum Azərbaycan Limited
23. Binəqədi Oyl Əməliyyat Şirkəti
24. Royal Association of Finance Investors (RAFI OIL FZE)
25. Naftiran İntergrade Co LTD (NİCO)

**Anlaşma Memorandumunun tərəfi olmayan şirkətlər**

1. Bakı-Tbilisi-Ceyhan Boru kəməri şirkəti
2. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ("ABƏŞ")[1]

[1] ABƏŞ ACG neft yatağının əməliyyat şirkətidir. ABƏŞ-nin partnyorları BP Eksploreyşn (Kəspian Si) Limited, Ekson Azərbaycan Limited, Statoil, İnpeks, ARDNŞ, Devon Enerci Kaspian Korpareyşn, İTOCHU oyl Eksploreyşn (Azərbaycan),Amerada Hess (ACG) Limited, Turkish Petrolium A.O, Unocal Xazar (Şevron Oversiz Petrolium Azərbaycan Limited).

**Əlavə 3**
**Anlaşma Memorandumunun tərəfi olan Qeyri-Hökümət Təşkilatlarının (QHT) və Fiziki Şəxslərin Siyahısı**

**QHT-rı**

1. Cəmiyyətin və Vətəndaş Əlaqələrinin İnkişafı
2. Demokratik Təsisatlar və İnsan Hüquqları İctimai Birliyi
3. Avrasiya Hüquqşünaslar Assosiasiyası
4. “Xalça Dünyası” Assosiasiyası (Quba bölgəsi)
5. Qadın Problemləri Tədqiqatları Mərkəzi
6. İqtisadi və Siyası Araşdırmalar Mərkəzi
7. İqtisadi və Sosial İnkişaf Mərkəzi (İSİM)
8. Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Milli Qrupu
9. D.Əliyeva adına Qadın Hüquqlarının Müdafiə Cəmiyyəti
10. Demokratik Seçkilərə Dəstək Mərkəzi İctimai Birliyi
11. Sosial İqtisadi Araşdırmalar Ictimai Birliyi
12. Elmi və Texniki Tərəqqi və Təhsil Fondu
13. Beynəlxalq Eko-energetika Akademiyası
14. Demokratik Dəyərlərin Müdafiəsi Fondu
15. İctimai Maliyə Monitorinq Mərkəzi
16. “Tərəqqi” Sosial Tədqiqatlar Mərkəzi İctimai Birliyi
17. Demokratik İslahatlar Uğrunda Cəmiyyət
18. Multimediya İnformasiya və Texnologiya mərkəzi
19. Siyasi Plüralizm İnstitutu
20. Humanitar Tədqiqatlar Cəmiyyəti
21. Mina Qurbanları Cəmiyyəti
22. "Sağlam Həyata Doğru" İB
23. Dalğa Gənclər Hərəkatı
24. Demokratiya və Qadın Təşəbbüsləri İB
25. Demokratik İnkişaf və İqtisadi Əməkdaşlıq
26. Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İB
27. Demokratiyanın İnkişafı və Hüquqi Yardım Mərkəzi
28. Transnəqliyyatın (nəqliyyatın) Komplaks Problemləri İnstitutut
29. Azad İstehlakçılar Birliyi
30. Aqroeko Konsaltinq Mərkəzi
31. "Proqres" İctimai Birliyi, Gəncə
32. Azərbaycan İnşaat Assosiasiyası
33. Yaşıllar Hərəkatı
34. Qadınlar arasında həmrəylik
35. Demokratik İslahatçı Gənclər İctimai Birliyi
36. Azərbaycan Sağlam İnkişaf İctimai Birliyi
37. Sosial- İqtisadi Hüquqlar üzrə Təlim- Monitorinq Mərkəzi
38. İqtisadi Tədqiqatlar Mərkəzi
39. «Buta» Humanitar Uşaq Fondu
40. İslam, Demokratiya və İnsan Haqqları mərkəzi
41. Ekoleks təşkilatı
42. Yerin dostları/Azərbaycan
43. "Ümid" Humanitar və Sosial Dayaq Mərkəzi
44. Gənc Hüquqşünaslar Birliyi

**Əlavə 3 (davamı)**
**Anlaşma Memorandumunun tərəfi olan Qeyri-Hökümət Təşkilatlarının (QHT) və Fiziki Şəxslərin Siyahısı (davamı)**

**QHT-rı (davamı)**

45. Gənclərin İnkişaf Mərkəzi
46. "Xilaskar" İctimai Birliyi
47. "Finance" Şəffaf Büdcə İctimai Birliyi (İmişli)
48. Media İnkişaf Mərkəzi
49. Azad İqtisadiyyat Mərkəzi
50. "İnam" Plüralizm Mərkəzi
51. İqtisadi Texnologiyalar İnstitutu
52. "Free Person" Insan Hüquqlarının Müdafiə Cəmiyyəti
53. Neftçilərin Hüquqlarını Müdafiə Komitəsi
54. Demokratik Təşəbbüslərə Dəstək Mərkəzi
55. Insan Huquqlari ve Ganunculugun Mudafiəsi Burosu
56. Demokratik Seçkilərə Yardım Mərkəzi
57. "Azərbaycan Futbolunun İnkişafı Mərkəzi" İB
58. Demokratik İslahatlar Mərkəzi
59. "Əks- səda" Beynəlxalq Jurnalisit Tədqiqatları Mərkəzi
60. "Ekspert" ekonomik jurnalı
61. "Bilik" Gəncə
62. Gənc Nəslin Maarifləndirilməsi İctimai Birliyi
63. Vətəndaşların əmək hüquqlarını müdafiə liqası
64. Demokratiya və Qadın Hüquqlarnın Himayə Mərkəzi
65. Yevlax Regional İnkişaf Mərkəzi İB (Yevlax şəhəri)
66. "Ruzgar" Ekoloji İctimai Birliyi
67. "İnsan Haqqları-2003" İctimai Birliyi
68. "Qadın Dünyası" İctimai Birliyi
69. Gəncə Uşaq Fondu
70. Konstitusiya Fondu
71. Demokratik Islahatlar Ugrunda Cəmiyyət
72. Qafqaz Media Tədqiqatlar Mərkəzi
73. Tacirlər və İstehsalçılar Birliyi
74. Hüquq Təşəbbüsü Fondu
75. Xəzər Universiteti nəzdində Biznes Araşdırmalar Mərkəzi
76. Crude Accountability
77. "Saniyə" Humanitar İnformasiya Analitik Agentliyi
78. Neft Araşdırmaları Mərkəzi
79. Mediada Vətəndaş Hüquqlarının Müdafiəsi Fondu
80. XXI Əsr Təhsil Mərkəzi İctimai Birliyi
81. "Elektron Seçki" İctimai Birliyi
82. İqisadi İnnovasiya Mərkəzi
83. Bərabər İmkanlar Mərkəzi
84. HVA Reqional bölgəsi (Gəncə)
85. Vətəndaş Cəmiyyəti Quruculuğuna Yardım Mərkəzi (Regional QHT Ağstafa rayonu
86. Azərbaycan Qadınlarının Siyasi Mədəniyyət Mərkəzi
87. Azərbaycan Ekoloji Standartların Monitorinqi Mərkəzi

**Əlavə 3 (ardı)**
**Anlaşma Memorandumunun tərəfi olan Qeyri-Hökümət Təşkilatlarının (QHT) və Fiziki Şəxslərin Siyahısı (davamı)**

**QHT-rı (davamı)**

88. Sülh və Demokratiya Təşkilatı
89. Qarabag Əlillərinə Qayğı Cəmiyyəti
90. Eko- Aləm İctimai Birliyi
91. İnsan Hüquqları XXI əsr-Azərbaycan Fondu
92. Milli Ekoloji Proqnozlaşdırma Mərkəzi

**Fiziki Şəxslər**

1. Ağayev Nəriman
2. Bəkirzadə Şəbnəm
3. Dünya Sakit
4. Əliyev Elmidar
5. Həmidova Hicran
6. Hüseynli Fikrət
7. Xəlilov Ruslan
8. İsayev Samir
9. İbrahimov Zaur
10. Qəhrəmanov Niyazi
11. Mövsümov Şamil
12. Musayev Ceyhun
13. Seyidova Süheylə
14. Səfərov Afiq